# "GİZLİ KƏLAMLAR"

***"Ey dost! Könül bağında eşq gülündən başqa gül əkmə. Sevgi və sövq bülbülünü əldən buraxma. Düz adamlarla ünsiyyəti qənimət bil və şər adamlarla yoldaşlıqdan əlini və ürəyini üz".***

***Həzrət Bəhaullah***

Bu sözlər "Kəlîməti-məknunə", yəni "Gizli kəlamlar" kitabından götürülüb. Həmin kitab Həzrət Bəhaullaha təxminən 1858-ci ildə nazil olmuşdur. İlahi nəcihətlərdən ibarət olan bu qeyri-adi toplu hər bir insana Allahın ruhi dünyalarına gedən yolda kamil rəhbərlikdir. İki hissədən ibarət olan, yəni fars və ərəb Həzrət Bəhaullahın "Kəlîməti-məknunə" kitabın əsas məqsədi - insana öz ürəyini təmizləmək, fani dünyaya bağlılıqdan çəkinmək və ruhunu ən qəddar düşməndən - öz pis "ehtiras və tamahından" qorumaq üçün kömək etməkdir. Bu kitab yüksək poetik dildə, metafor, rəmz və alleqoriyalardan istifadə edilməklə yazılmışdır. Yüz minlərlə insan nəsildən-nəsilə "Kəlîməti-məknunə"ni təkrar-təkrar oxumuş, bu İlahi kəlamların insan ruhunu necə yüksəltdiyini və islah etdiyini özlərində hiss etmişlər.

Biz bu kitabdan bəzi kəlamlardan sizlərə təqdim etmək istəyirik.

"Ey ruh oğlu! Mənim ilk nəsihətim budur: pak, lütfkar və nurlu bir ürəyə malik ol ki, əzəli, əbədi və qədim bir səltənətə sahib olasan".

"Ey ruh oğlu! Mənim gözümdə bütün şeylərin ən sevimlisi insafdır; məni istəyirsənsə, ondan üz çevirmə. Ondan qafil olma ki, Mənim yanımda əmin tanınasan"...

"Ey varlıq oğlu! Sən Mənim çırağımsan və Mənim işığım səndədir. Onlar nur al və Məndən başqasını axtarma. Çünki Mən səni zəngin yaratmışam və bütün nemətləri səndə təkmil etmişəm".

"Ey insan oğlu! Öz həddini aşma, sənə layiq olmayan şeyə iddia etmə. Qüdrət və iqtidar sahibi olan Allah-təalanın hüzurunda səcdə et!"

**AZƏR**